Poliglot / №11 (94) / 10 oktyabr 2006-cı il

# AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİNİN KİTABXANASI MODERNLƏŞDİRİLİR

28 sentyabr 2006-cı ildə universitetimizin ikinci tədris binasında yerləşən "Tələbələr üçün oxu zalı"nda "Exxon Mobile" Ekson Azərbaycan Əməliyyat şirkəti tərəfindən maliyyələşdirilmiş "Azərbaycan Dillər Universiteti kitabxanasının modernləşdirilməsi konsepsiyası" layihəsinə həsr olunmuş tədbir keçirildi. Tədbirdə universitetimizin rektoru, millət vəkili, professor Səməd Seyidov, Ekson Azərbaycan Əməliyyat şirkətinin nümayəndəsi Vəfa Əsədova, Beynəlxalq əlaqələr üzrə prorektor Jalə Qəribova, ADU kitabxanasının müdiri Ələddin Əliyev, ABŞ səfirliyinin regional kitabxanaların inkişafı proqramının əlaqələndiricisi Şəhla Xudiyeva, AMEA-ın əməkdaşı Zakirə Əliyeva, "American corner" kitabxanasının kitabxana-informasiya mütəxəssisi Sadiq Gülağayev, ADU kitabxanasının kitabxana-informasiya mütəxəssisi Elçin Məmmədov, kitabxana işçiləri, fakultə dekanları və müəllimlər iştirak edirdilər.

Tədbiri giriş sozü ilə açan ADU kitabxanasının müdiri Ələddin Əliyev son illərdə universitetimizdə həyata keçirilən yeniliklərdən danışdı və bu sahədə professor Səməd Seyidovun böyük əməyini qeyd etdi. Ələddin Əliyev son iki ildə kitabxanada da xeyli dəyişikliklər olduğunu və bu dəyişikliklərin rektorun kitabxanaya göstərdiyi diqqət və qayğının məntiqi nəticəsi olduğunu diqqətə çatdırdı. Sevindirici haldır ki, ADU-nun kitabxanası da Beynəlxalq Kitabxana Konsorsiumunun üzvü olan kitabxanaların sırasına qoşulmağa hazırlaşır. Ələddin Əliyev kitab verilişi zamanı ortaya çıxan çətinliklərin səbəbini izah edərək bildirdi ki, obyektiv səbəblərə görə yaranan dərslik çatışmazlığı məsələsi öz həllini gözləyən problemlərdən biridir.

Bundan sonra ADU kitabxanasının kitabxana-informasiya mütəxəssisi Elçin Məmmədov ADU-nun və ADU kitabxanasının yeni yaradılan veb-saytlarını təqdim etdi. ADU-nun veb-saytının ingilis, kitabxananın veb saytının isə Azərbaycan dilində olan variantlarını təqdim edən Elçin Məmmədov ona verilən sualları cavablandıraraq bildirdi ki, ən qısa müddətdə hər iki veb-sayt üç dildə - Azərbaycan, rus və ingilis dillərində Internet şəbəkəsində öz əksini tapacaqdır. Bundan sonra ADU kitabxanasının yaradılacaq elektron kataloqu və tam mətnli elmi bazalarından kitabxananın veb saytı vasitəsi ilə istifadə etmək mümkün olacaqdır.

"American Corner" kitabxanasının kitabxana-informasiya mütəxssisi Sadiq Gülağayev isə ADU-nun kitabxanasında yeni tətbiq olunmağa başlayan "Irbis-64" sistemini təqdim etdi və tədbir iştirakçılarının kitab verilişi prosesi ilə bağlı verdikləri bu və ya digər sualları ətraflı cavablandırdı.

ADU kitabxanasının elektron kataloqunun yaradılması istiqamətində görülən işlərlə bağlı verilən suallara Ələddin Əliyev və Sadiq Gülağayev aydınlıq gətirdi. Professor Səməd Seyidov təklif etdi ki, yaradılmaqda olan elektron kataloq əvvəlki kataloqu olduğu kimi deyil, məhz kitabxananın real, hazırda mövcud olan fondunu əks etdirsin. Sadiq Gülağayev bunu da izah edərək

bildirdi ki, elektron kataloqa yalnız mövcud olan fond köçürülməlidir. Əks halda kitabxananın elektron kataloqu və canlı fondu arasında müxtəlif uyğunsuzluqlar yarana bilər.

Qeyd etmək lazımdır ki, iyirmi nəfər kitabxanaçı 2006-cı ilin yanvar-iyun aylarında Ekson Azərbaycan Əməliyyat şirkəti tərəfindən maliyyələşdirilmiş "Azərbaycan Dillər Universiteti kitabxanasının modernləşdirilməsi konsepsiyası" layihəsi çərçivəsində 126 saatlıq təlim kursu keçərək, öz biliklərini daha da təkmilləşdirmişlər. Kitabxana-informasiya sahəsi üzrə ekspert Şəhla Xudiyeva bu haqda danışaraq artıq həmin kitabxanaçıların dörd layihə üzərində işlədiyini və bu işdə bir neçə kitabxanaçının daha fəal olduğunu diqqətə çatdırdı.

Tədbirdə səslənən təkliflər içində elmi işlərin və dissertasiyaların elektron versiyasının yaradılması təklifi hamı tərəfindən bəyənildi. Təbii ki, disket şəklində olan məlumatlar kiçik olduğu üçün yer tutumu baxımından olduqca əlverişlidir.

Professor Səməd Seyidov öz çıxışında bildirdi ki, bütün universitetdə olduğu kimi, kitabxanada da müasir dövrün tələbləri ilə ayaqlaşa bilən yüksək ixtisaslı kadrlar çalışmalıdır. Universitetdə fəaliyyət göstərən Attestasiya Komissiyasının fəaliyyətindən danışan rektor qeyd etdi ki, XXI əsr kitabxanaları yalnız kitab verilişi ilə məşğul olan bir müəssisə kimi deyil, öz oxucularını hər növ məlumatlarla təmin edən informasiya müəssisəsi, elmi-tədqiqat işləri ilə məşğul olan sosial institut kimi fəaliyyət gostərməlidir.

Sonda professor Səməd Seyidov "Azərbaycan Dillər Universiteti kitabxanasının modernləşdirilməsi konsepsiyası" layihəsinin reallaşdırılmasında göstərdikləri köməyə görə "Exxon Mobile" Ekson Azərbaycan Əməliyyat şirkətinə dərin minnətdarlığını bildirdi və bu layihə çərçivəsində 126 saatlıq təlim kurslarını müvəffəqiyyətlə bitirən kitabxana işçilərinə - Səkinə Qasımovaya, Sevda Kərimovaya, Zümrüd Qasımovaya, Gülşən Rzaquliyevaya, Xuraman Əliyevaya, Natavan Tarverdiyevaya, Yaqut Əsədovaya, Şükufə Məmmədovaya, Gülzar Məmmədovaya, Firuzə Şıxıyevaya, İntizar Ağayevaya, Sevinc Əsgərovaya, Nəzakət Mahmudovaya fərqlənmə sertifikatlarını təqdim edərək onlara uğurlar arzuladı.

Sevda KƏRİMOVA,
ADU kitabxanasının əməkdaşı.

© ADU 2006.